Azərbaycan Arxeologiyası Azerbaijan Archeol
2006 Vol.: 8 Num.:

# AZƏRBAYCANIN ORTA ƏSR YAŞAYIŞ EVLƏRI

***Samir Kərimov***
*(Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu)*

Azərbaycanın orta əsr şəhər məişətinin öyrənilməsində yaş-ayış evl; xüsusi yer tutur. Yaşayış evləri orta əsr şəhərlərinin əsas quruluş elementlə' dən biri olmuş, şəhərlərin memarlıq - kompozisiya həllində, planlaşması mühüm rol oynamışdır.

Orta əsr şəhərlərinin yaşayış evbrinin tədqiq edilməsində başlıca mə arxealoji qazmtılar zamanı üzə çıxanlan tikili qalıqlarıdır. Bu baxımd Qəbələ, Beybqan, Xaraba - Gilan, Bakı, Gəncə, Dərbənd, Şabran, Bərdə vaj şəhərlərdə aparılan çoxillik arxeoloji qazıntılan mühüm əhəmiyyət kəsb edir;

Artıq IX əsrdən başlayaraq Azərbaycan şəhərləri inkişaf mərhələsinə dəm qoyur, şəhərlərdə yeni strukturlar formalaşır. Şəhərbrin ərazisi genişlə əhalisi artır və yaşayış tikilibri sıxlaşır. Yaşayış evbri əsasən şəhristan rabadda yerləşmişflH (l,s.20).

Yaşayış evbrinin memarlığına şəhərlərdə təbii - iqlim şəraiti və ictima iqtisadi amilbr ciddi təsir göstərmişdir. Xalq yaşayış evbrinin tədqiqatçı H.Zərdabi haqlı olaraq qeyd etmişdir ki, yaşayış evləri insanı qardan, yağışd soyuqdan və kübkdən qoruyur (2,s.l26). Müvafiq olaraq evlər inşa olunark iqlim şəraiti nəzərə alınırdı.

Yazılı mənbə məlumatları və arxeoloji qazıntılar subut edir ki, şəhərlə narınqala və şəhristan hissəbrində yaşayış evbri möhtəşəm, çoxmərtəbəli mürəkkəb memarlıq bəzəyinə malik olduğu halda qala divarlanndan bayır xüsusən rabadda yaşayış evbrinin xırda və müvəqqəti xarakter daşıması sadüfı deyildir(3, s.32). Feodal cəmiyyətinin sosial strukturundan asıh olar şəhərbrdə yaşayış evbri müxtəlif idi.

Çoxmərtəbəli və gözəl memarlıq quruluşuna malik olan evbr -hakim varlı təbəqənin nümayəndəbrinə məxsus olmuş, şəhərbrin əhəmiyyətli sah sində yerbşərək, şəhərlərin memarlıq simasının formalaşmasında əsas əlanw brdən birinə çevrilmişdir.

Şəhərbrin təbii - landşaft xüsusiyyətbrindən asılı olaraq yaşayış evlərin[j] tikintisində müxtəlif inşaat materiallanndan istifadə edilmiş və əhali ' gündəlik məişətindən doğan bbbbr evbrin inşasında nəzərə alınmırdı. O əsrbrdə xalq memarlan tikinti materiallarının təbiətini, bədii-estetik keyfıyyaj brini və xalqın məişət tərzini dərindən dərk edərək, qanunauyğun bir şəkild yaşayış evbrinin memarlığının ardıcıl surətdə təkmilləşməsinə çalışmışlar (5, 47). Arxeoloji qazıntılar orta əsr yaşayış evbrinin səciyyəvi xüsusiyyətbri inşaat texnikasını, plan-kompozisiya və konstruktiv elementbrinin araşdml

masına qismən imkan verir. Bunu Qəbələ, Beybqan, Xaraba-Gilan, Dərbənd və s. şəhərbrdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edibn yaşayış evbrinin qalıqlanndan müşahidə edirik (6, s. 43-44; 7, s. 47-50; 8, s.80; 9, s. 40-44; 10, s. 86-107). Ciddi dağıntılara məruz qalmasına baxmayaraq yaşayış evbrinin bünövrə, döşəmə və divar qalıqları, quyular, təndirlər, ocaqlar və digər yardımçı tikilibr onlar haqqmda təsəwürbrin genişləndirilməsinə köməklik edir. Arxeoloq R.M. Vahidov haqlı olaraq qeyd edir ki, yerli əhalinin məişəti haqqında tam və düzgün təsəvvür əldə etmək üçün yaşayış evbri digər abidələr ils birlikdə, kompleks halında götürülərək qiymətləndirilməli, beb abidələr isə ocaq yerbri, təsərrüfat quyulan, təsərrüfat küpbri, təndirlər və əhalinin yaşayı-şının müxtəlif sahəbrini əks etdirən başqa tapıntılardır (10, s. 22). Azərbay-canın tədqiq olunmuş orta əsr şəhərlərinin əksəriyyətində çoxlu beb tikili və qurğulara rast gəlinmişdir.

Qobələ şəhərinin IX-XI əsrlərə aid mədəni təbəqəsi bdqiq olımarkən, ya-şayış evləri ilə bağlı bəzi dəlillər əldə olunmuş, evbrin çay daşı və bişmiş karpicdən palçıq məhlulu ib inşa olunması, yaşayış evbrinin bəzən ağac sütun-lar üzorində tikilməsi, evbrin dam örtüyündə kirəmit və qırdan istifadə edil-masiüzə çıxanlmışdır (12, s. 151; 13, s. 29-31; 14, s. 75-82).

Qəbob şəhərinin XII-XIII əsrin əvvəlbrinə aid olunan yaşayış evbri əsa-sən çox otaqlı olmuş, əksəriyyəti cənub-şərqdən şimal-şərqə doğru istiqamət-lənmiş, çaydaşı və bişmiş kərpicdən düzbucaqlı və kvadrat biçimdə tikilmiş, otaqlann sahəsi 30 $m^2$-ə qədər olmuş, daxildən saman qatılmış palçıq və əhəng raəhlulu ilə suvanmış, divarlar müxtəlif rəngbrb şirələnmiş və onlann bədii tərtibatında kaşılardan istifadə edilmiş, qapı və pəncərələrin yanları, üstü yonma daşlardan düzəldibrək naxışlanmışdır (6, s. 44; 15, s. 93). Qəbələdə qa-zmtılar zamanı aşkar edibn yaşayış evbri kompleksində mətbəx, qonaq otağı, yataq otağı funksiyasını daşıyan otaqlarda qeydə almmış və otaqların qızdınl-masında divarlarda,yaxud divara yaxın qurulmuş ocaqlardan istifadə edildiyini arxeoloji tədqiqatlar əhəmiyyətli dərəcədə sübuta yetirmişdir (13, s. 29; 6, s. 44; 15, s. 93). Etnoqrafık müşahidəbrə görə, qış aylannda ailənin beb ocaqla-nnbaşına yığışdığmı söybmək olar.

Beybqan şəhərində 1953-1968-ci illərdə apanlan arxeoloji qazıntılar nəti-cəsində şəhərin müxtəlif qazıntı sahələrində IX-XIII əsrin əwəllərinə aid çoxlu lyış evinin qalıqlan üzə çıxarılmışdır. Arxeoloji tədqiqatlärdan malum ol-muşdur ki, şəhərin IX-X əsrbrə aid evbri möhrə, çiy kərpic və az hallarda bişmiş kərpicdən tikilmiş, otaqlann döşəməsi toфaqdan olmuş və şirələnmiş, görünür, vaxti ib həsir, xalça-palazla döşənmiş və onlar isə dövrümüzə gəlib çatmamışdır (7, s. 23). Yaşayış evbrini xarakterizə edən komplekslərdən zən-gin məişət avadanlığı tapümışdır.

Məhz IX-X əsrlərdən başlayaraq Beybqan şəhərində yaşayış evbrinin sıxM lığma üzə çıxanlan çoxlu miqdarda quyular şahidlik edir və şəhərdə həyali intensiv xarakter alır (16,s.l0). Bu dövrə aid quyulann əksəriyyəti yaşaye evlərinə məxsus olmuş və şəhər əhalisi quyulardan məişət və təsərrüfat ehtfl yaclarmın ödənilməsində istifadə etmişdir.

Beybqan şəhərinin XI-XIII əsrin əwəllərinə aid yaşayış evləri, bilavasM çiy və bişmiş kərpicdən inşa edilmiş, otaqlann divarlannın daxildən suvanmai sında kirəc məhlulundan istifadə olunmuş, evbrin dam örtüyü kirəmit, qarjŞİ və qamışdan olmuşdur (7,s.48-49).Qazıntılar zamanı şəhərin yaşayış evbrinie qalıqlannda mətbəx ,qonaq otağı, yataq otağı, anbar, ayaqyolu və s. ehtimal olunan tikili qalıqları bmizbnmişdir.

Orta əsrlərin bütün Şərq şəhərbri kimi Azərbaycan şəhərlərinin də cəl miyyətin sinfı quruluşu, ictimai təbəqələşməsini əks etdirməsi bir həqiqətdil (17,s.7).Beybqan şəhərində ictimai təbəqələşməni tədqiq olunan yaşayış ev« də sübut edir. Arxeoloji tədqiqatlardan malum olmuşdur ki, varlılar, zəngiJ şəhərlilər başlıca olaraq şəhərin mərkəzindəki yaraşıqlı binalarda yaşamışlaıl (18,s.7) Şəhərin varlı təbəqəsinin yaşayış evbrinin memarlıq brtibatına xüsusl fıkir verilmiş, onlarm mürəkkəb kompozisiya-plan quruluşu olmuş, otaqlanJ daxili sahmanma və həyətbrin quruluşlarına görə digər evlərdən fərqbnmişdl (19,s.l20). Tədqiqat işbri qismən olsa da, şəhərin yaşayış evbrinin səciyyəvi xüsusiyyətbrini izbməyə imkan vermişdir. Beybqanin yaşayış evbri üçütl daha bir xarakterik cəhət, həmin evbrdə yanmzirzəmili otaqlann olması və qal zmtılar zamanı beb otaqlardan zəngin məişət və təsərrüfat materiallarının tapıll ması idi (7,s.49). Çox güman ki, yanmzirzəmili otaqlardan anbar kimi istifadJ edilmiş və yay vaxtı zəruri ərzaq məhsullan həmin otaqlarda saxlanılmışdır.

Təbii olaraq yaşayış evbrində yalnız fızoloji və məişət (yatmaq, din-cəlmək, yemək və s.) prosesləri deyil, eyni zamanda bir sıra təsərrüfat və is| tehsalat prosesləri də icra olunduğunu onlann planlaşması da təsdiqləyifl (5,s.25). Beybqan şəhərinin sənətkarlara məxsus evbri bu cür funksiya da^ şımışdır. Şəhərin yaşayış evbri içərisində kiçik həyətə malik olan evbr də bö| yük maraq doğurur. Arxeoloq Qara Əhmədovun yazdığma görə, bir ailəyaj məxsus olan beb həyətbrdə yay vaxtı istirahət etmək, əl-üz yumaq, dəstəma^ almaq, çimmək, alqı-satqı etmək, sövdəbşmə, məclis qurmaq və s. mümkün id| (7,s.48). Beybqanm yaşayış evbri ib bağlı kanalizasiya qurğulan diqqəti cəll edir. Arxeoloji qazıntılar zamanı Beybqanda Orta Asiyanın taşnau adlanai (20, s.109; 21, s. 61-65; 7,s. 48) kanalizasiya qurğulanna oxşar kanalizasiy* qurğulan tapılmışdır. Taşnau tipli qurğulardan istifadə edilməsi,evlərin sanit gigiyenik cəhətdən təmizliyinə riayət olunduğunu göstərir.

Beybqan şəhərinin yaşayış evbrinin daxili sahmani ib bağlı arxeoloji qa-zıntılar zamanı dolayısı olsa da, müəyyən məlumatlar əldə edilmişdir.Yaşayış kompleksinə daxil olan otaqlar xalça,xalı,palaz və həsirlə döşənmiş,divarlarda taxça və camxatanlar mövcud olmuş,buraya müxtəlif zəruri məişət avadanlığı yığılmış və otaqların qızdırılmasmda ocaq,təndir və kürsübrdən istifadə edil-mişdir.

Gəncə şəhərinin XI-XIII əsrbrə aid yaşayış evbri barəsində arxeoloji mə-lumat az olsa da vardır. Şəhərdə arxeoloji qazıntılar nəticəsində XI-XII əsrlərə aid cdibn çoxotaqlı yaşayış evinin qalıqlan üzə çıxanlmışdır. O çiy və bişmiş karpicdən, saman qatılımış palçıqla tikilmiş, onun divarları daxildən palçıqla suvanmış, otaqlardan birində kəcdən divar üzlüyünə rast gəlinmişdir (22, s. 61-62). Otaqlann təyinatı müəyyənləşdirilməsinə imkan verən maddi dəlibr əldə olunmamışdır. Gəncə şəhərində tez-tez baş verən zəlzələlər yaşayış evbrinin dağılması ib nəticələndiyindən, onların qalıqları dövrümüzə gəlib çatmamışdır.

Bərdə şəhərinin IX-XIII əsrlərə aid yaşayış evbrinin memarlığında əsas tikinti materialı müxtəlif ölçülü bişmiş кэф1с1эг olmuş, evbrin bədii tərtiba-tında kaşdardan, dam örtüyündə yastı kirəmitlərdən istifadə edilmişdir (23, s. 72-74). Şəhərin yaşayış evbrinin daxili sahmani haqqmda çox cüzi məlumatlar vardır.

Qəbəb, Beybqan və Gəncə şəhərbrinin yaşayış evbrinin inşasmda oxşar cahatbrdən biri, evbrin çay daşı və bişmiş kərpicin kombinasiyasından ibarət qarışıq hörgübrdən istifadə edilməsidir (24, s. 361). Qarışıq hörgübr yaşayış evbnnin divarlannda təkcə naxış elementbri olmamış, həm də hörgünün möh-kamliyinə xidmət etmişdir.

Bakıda, İçərişəhərdə IX-XIII əsrlərə aid mədəni təbəqənin tədqiqi zamanı yaşayış evbrinin qalıqlarına, bünövrə izbrinə və yaşayış evbri ib bağlı müxtəlif məişət tikililərinə rast gəlinmişdir.

1972-ci ildə Bakı şəhərinin şərq yamacında arxeoloji qazıntılar zamanı şəhərin aşağı mədəni təbəqəsində üzə çıxarılmış yaşayış evi düzbucaqlı planda inşa olunmuş, bütün divarları şərqdən qərbə doğru istiqamətlənmiş, bir neçə di-varda qapı və pəncərə yerbri, divarlann bəzi yerbrində suvaq qalıqları aşkar-lanmışdır (25, s. 123).

1976-cı ildə Bakı şəhərinin IX-XIII əsrbrə aid mədəni təbəqəsində apa-nlan qazmtı işbri zamanı düzbucaqlı planda, bünövrəsi iri yonulmuş daşlardan inşa olunmuş, yaşayış evbrinin qalıqları üzə çıxanlmış evin divarlan cənub-qarbdən şimal-qarbə doğra istiqamətbnmiş və ilk dəfə olaraq yaşayış evi ib əlaqədar iri anbar tikilisi bmizbnmişdir (27, s. 41). Bu anbar tikilisindən məi-şot və tasərrüfat məqsədi ib istifadə olunduğunu ehtimal etmək olar.

Bakı şəhərinin yaşayış evbrinin inşasında əsas tikinti materialı əhəngdaş olmuş, bərkedici məhlul kimi əhəngdən, dam örtüyündə qırdan istifadə olufl muşdur (25, s. 121-123). Qazıntılar nəticəsində aşkar edibn evbrin memaH ğında Şirvan-Abşeron memarlıq məktəbinə xas olan xüsusiyyətlər əksini tafl mışdır. Orta əsrbrdə daşdan tikinti texnikasının inkişafı Abşeronda memarifl formalannın zənginliyinə və orijinallığına mühüm təsir göstərmiş (26, s. 9» eyni zamanda Bakı şəhərinin yaşayış evbrinin memarlığında əsaslı dəyişifl likbrə gətirib çıxarmışdır.

Azərbaycanm digər orta əsr şəhərlərindən fərqli olaraq Bakı şəhərinin yfl şayış evbri üçün kərpic memarlığı və kirəmit örtükbr xarakterik olmamışfl (28,s . 20). Şəhərdə evbrin dam örtüyündə qırdan istifadə edilməsi onlarmyäB tı konstraksiyaya malik olduğunu söybməyə əsas verir.

Bakı şəhərinin 1X-XШ əsrlərə aid yaşayış evbrinə məxsus ümumi cəhfl br, onların özülbrini bilavasitə qaya üzərində yerləşməsi, otaqların xeyli kiçik olması və düzbucaqlı planda az yonulmuş daşlardan tikilməsidir (29, s.20).

Gəncə şəhərində olduğu kimi Şamaxı şəhərində zəlzəbbrin tez-tez bfl vennəsi yaşayış evbrinə ciddi ziyan vunnuşdur. H.Ə.Ciddinin yazdığına göıfl Şamaxı şəhərinin IX-XII əsrbrdə inşa olunmuş yaşayış evbri ərazinin seysmit xarakterinə və sonrakı əsrbrdə apanlan tikinti işbri nəticəsində güclü dağmtıya məruz qalmışdı.

1976-cı ildə Şamaxı şəhərinin IX-XII əsrbrə aid mədəni təbəqəsi todqiq olunarkən çay daşından əhəng məhlulu ib inşa olunan 5 otağın qalıqları *шт*çıxarılmış, otaqlar kvadrat biçimli olmuş və onların heç birinin sahəbri eyfl olmamışdır (30, s. 45).

Tədqiqat işbri zamanı otaqlann içindən məişət və təsərrüfat avadanl™ tapılmışdır. Bu da otaqlann təyinatı ib bağlı mülahizələrin irəli sürülməsins şərait yaratmışdır. Bunula beb, VI qazıntı sahəsində və Gülüstan qalasınde öyrənibn tikili qalıqlan IX-XIII əsrbrə aid yaşayış evbrinin memarlıq-котров zisiya quruluşu-planlaşması haqqmda müəyyən məlumat vennişdir (31, s. 4Ш 49; 32, s. 11-12). Şamaxı şəhərinin yaşayış evbrinin inşasında başlıca tikinti materiah çay daşı olmuş və hörgü məhlulu kimi əhəngdən istifadə olunmuşdur, Gülüstan qalasında apanlan arxeoloji qazıntdar nəticəsində aşkar edibn böyük saray kompleksinə daxil olan yaşayış evbri X-XIII əsrlər Şamaxısmm тетагЯ lıq üslubunu və feodal sinfinin məişətinin öyrənilməsi baxımından əhəmiyyətle olmuşdur (33, s. 378). Saray kompleksinin qalıqları şəhərin varlı təbəqəsiniıB yaşayış evbrinin səciyyəvi xüsusiyyətlərini özündə əks etdirmiş və burada müxtəlif təyinatlı otaqlar qeydə alınmışdır.

1972-2004-cü ilbrdə Dərbənd şəhərində apanlan arxeoloji tədqiqat işləhfl nəticəsində şəhərin yaşayış evbri ib bağlı çoxlu arxeoloji faktlar эИэи edilmişdir. Qazıntı işləri zamanı şəhər narınqalasının şimal-şərqində və cənub-şərqində IX-XI əsrlərə aid edibn imarət tipli evbrinin qalıqlan üzə çıxanlmış-dır (10, s. 70). Yaşayış evbrinin qalıqlan şəhristanda da tədqiq edilmişdir. Ev-br iri və orta ölçülü yonulmuş daşlardan, bişmiş kərpicdən düzbucaqlı, kvadrat planda tikilmiş və divarlann istiqaməti şimaldan-cənubadır. Otaqlarm sahəsi 20-40 $m^2$-ə qədər iri tikililərdə 60 $m^2$ təşkil edir (10, s. 70). Yaşayış evbrinin kompleksində müxtəlif təyinatlı otaqlar şəhər əhalisinin məişət tərzindən və təsərrüfat fəaliyyətindən irəli gəlmişdir. Arxeoloji tədqiqatlar evbrin dam örtü-yündə kirəmit və qırdan istifadə edildiyini subuta yetirmişdir. Otaqlann döşə-mələri əsasən torpaqdan olmuş, bəzən əhənglə suvanmış və divarlarda suvaq izbrinə rast gəlinmişdir.

Dərbənd şəhərinin yaşayış evbrinin эп çox Bakı şəhəri ib oxşar cəhətləri vardır. Oxsar cəhətlər əsasən, evbrin planlaşmasında və interyerində əksini tapmışdır.

Dərbəndin XI-XIII əsrbrə aid yaşaytş tikilibri içərisində Nannqalada todqiq edilmiş saray tikilibrinin qalıqlan böyük maraq doğurur. Saray qalıqla-nnın tədqiqi feodal əyanlarının məişəti haqqında təsəvvürlərin genişbndiril-məsinə şərait yaratmışdır (34, s. 116; 10, s. 90-94). Saray tikilibri şəhərin digər yaşayış evlərindən memarlıq quruluşuna görə fərqbnirdi.

Dərbəndin şəhristanının aşağı rayonlarında, xüsusən, onun dənizsahili his-səsində kiçik sadə evbrə məxsus tikili qalıqlarının tapılması da ictimai təbəqə-bşmani sənədbşdirən dəlilbrdir (10, s. 71). Burada şəhərin yoxsul təbəqəsinə msxsus tikili qalıqlan məişət avadanhğınm kasıblığı və tikinti texnikasının zəifliyi ilə seçilir. Bu jür yaşayış tikililərində ailənin yaşayış və təsərrüfat bölməsi olurdu.

Dərbəndin yaşayış evlərinin memarlığının digər səjiyyəvi jəhəti yaşayış evlorinin ön qapı fasadının birbaşa küçəyə yox, məhəllənin daxilinə tərəf açılması idi. (35, s.51). Yəqin ki, bu hal təkjə Dərbənd şəhərinə deyil, Azər-baycanın orta əsr şəhərlərinin hamısına şamildir. On qapı fasadımn birbaşa küçəyə açdmamasının başhja səbəbi şəhər əhalisinin məişət tərzindən irəli golmiş, evlərdə qapalı mühitin yaranmasma xidmət etmişdir.

Şabran şəhərinin yaşayış evlərinin inşasında Şirvanın digər şəhərlərindən lərqli olaraq başlıja tikinti materialı bişmiş kərpij olmuş, evlərin bünövrəsi üçün çay daşı istifadə edilmişdir. Evlərin döşəməsi torpaqdan olub, üzərinə suvaq-şirə çəkilmiş və dam örtüyü yastı konstruksiyaya malik olmuşdur (36, s.90-91). Şabran şəhərinin

yaşayış evlərinin daxili sahmani ilə bağlı faktiki materiallar olduqca azdır və onlar daha çox bünövrə qalıqları ilə təmsil olun-muşdur. Şabranın yaşayış evlərinin bədii tərtibatında şirli bəzək kərpic-lorindən, kaşılardan istifadə edilmiş, onlar əhəng və кэс məhlulu ib vurul muşdur (36, s. 106-107). Görünür, beb bəzəklər şəhərin varlı təbəqəsini yaşayış evbri üçün daha xarakterik idi. Arxeoloji qazmtılar noticəsin< Şabrandan aşkar edibn yaşayış evlərindən nisbətən yaxşı mühafizə olunaı V qazmtı sahəsinin XII əsr təboqəsində tədqiq olunan evin qalıqlancbj kvadrat planda inşa edibn evin otaqlarmdan biri mühafizə olunmuş v onun şimal divarında 80 sm enində taxça açılmış və buradan məişotə aя müxtəlif əşyalar tapılmışdır (36, s. 91).

Adətən, taxçalar yaşayış evlərində məişətdə işlənən qablann yığılmasl üçün qurulurdu (5, s. 72). Taxçalar və camxatanlar otaqlarm daxili intei yerində məişət ehtiyaclarınm ödənilməsi üçün nəzərdə tutulurdu.

Xaraba - Gilanda yaşayış evbrinin inşasmda əsas tikinti materialı kirr^ daşdan, möhrədən, çiy və bişmiş kərpicdən istifadə edilmiş və otaqlarıl bədii tərtibatında həndəsi, nəbati ornamentbr tətbiq olunmuşdur. Evtarij inşasında Naxçıvan memarlıq məktəbinə məxsus xüsusiyyətbr nəzərə çaı pır. Bu memarlıq məktəbi yaşayış evbrinin memarlıq- planlaşdırma qunj luşuna ciddi təsir göstərmişdir (5. s. 135). Şəhərin müxtəlif yerlərində aşkal edibn tikili qalıqlarında bunu izləmək mümkündür.

Arxeoloq B.İ. İbrahimov Xaraba-Gilanın şəhristan hissəsindəki ya-şayış evbrinin bir-birinə bitişik tikildiyini və evbrin bu cür yerbşməsinl Azərbaycan və Orta Asiya şəhərbri üçün xarakterik olduğunu qeyd etmiJ dir (9, s. 41). Xaraba- Gilanda apanlan arxeoloji tədqiqatlarda şəhərin yal şayış evbrinin bir çox əlamətbrini əks etdirən kompleksbrdən biri dahaj çox maraq doğurur.

1977-78-ci ilbrdə şəhərdə tədqiqat işbri nəticəsində XII əsrin sonu -: XIII əsrin əvvəllərinə aid edibn 8 otaqlı yaşayış evinin qahqları üzə çıxarıl-j mış, burada müxtəlif təyinatlı otlaqlar qeydə alınmış və yaşayış komp| leksində qonaq otağı, yataq otağı və s. funksiyanı daşıyan otaqlar osasənj ikinci mərtəbədə yerbşmişdir (37, s.41-42; 9, s. 41-43). Aşkar edibn yaşayıa evi şəhərdə iki mərtəbəli, çox otaqlı evbrin tikildiyini sübuta yetirir.

Azərbaycanın orta əsr şəhərlərində apanlan arxeoloji qazıntılardan beb qənaətə gəlmək olur ki, IX-XIII əsrbrin əvvəllərinə aid yaşayış evləri çox və tək otaqlı olmuş, yaşayış kompleksində ümümi yaşayış otağı, qonaq otağı, yataq otağı, mətbəx, dəhliz, eyvan və digor yardımçı bölmələr möv-cüd olmuşdur. Yaşayış evbrinin memarlığında Arran, Abşeron, Şirvan, Naxçıvan və s. memarlıq məktəbbrinə məxsus xarakterik xüsusiyyətbr эк-sini tapmışdır. Yaşayış kompleksində hər bir bölmənin özünəməxsus təyi-natı olmuş, onların daxili sahmanına, bədii tərtibatına və məişət avadanlığı ib təchiz'inə fikir verilmişdir.

Etnoqrafık dəlillərə əsasən yaşayış kompleksində qonaq otağınm bədii tərtibatma xüsusi diqqət yetirildiyini və onun üçün ayrıca otağın ayrıldığını söyləmək olar (38, s. 148). Adətən yaşayış kompleksində qonaq otağı rəs-mi bölmo kimi fəaliyyət göstərmiş vo səliqəliliyi ilə seçilmişdir. Eyni zaman-da yaşayış komplekslərində islam dininin təsiri altında qadın və kişi böl-mohrinin mövcudluğu danılmaz bir həqiqətdir. Qadınlara məxsus bölmədə qapalı *mühit* hökm sürmüş və evin digər bölməbrindən təcrid edilmişdir. Beb hallar şəhərin varlı *tabəqssinin yaşayış evlərindo* daha qabarıq nəzərə çarpmışdır. Hətta, tək otaqlı evbrdə beb qadm və kişi *bölmshri mövcud* olmuş vo otaq iki hissəyə ayrılmışdır. Bu dövrün yaşayış evbrinin döşə-məbri həsir, xalça, palazla örtülmüş, onlarm üzərinə döşəkcələr, mitəkkə-br düzülmüş və bunlar isə bardaş qurub oturmağa, rahatlanmağa xidmət etmiş, camxatanlara yataq dəsti yığılımış və taxçalara müxtəlif məişət əşya-ları düzülmüşdür. Evbrin qızdırılmasmda təndir, ocaq, kürsübrdən, işıq-landırılmasında şamdan, piydan, çıraqlardan geniş istifadə edilmişdir.

Ümumiyyotb, yaşayış evbrində Azərbaycanm orta əsr şəhər məişətinin tipik xüsusiyyətbri əksini tapmışdır.

ƏDƏBİYYAT

1. Минкевич Н.В. О жилищах в городах Азербайджана в средние века// Итоги полевых археологических и этнографических исследований за 1972 год в Азербайджанской ССР. Тезисы. Баку, Элм, 1973.
2. Джавадова Э.Ю. Г.Б. Зардаби. О традиционном жилище азербайджанского народа// АЭИА (1980-1981 гг.). Баку, Элм, 1986.
3. Dostiyev T. Azərbaycanın orta əsr şəhərləri. Azərbaycan arxeologiyası, *1999,* № 1-2.
4. Беленицкий А.М., Бентович И.Б., Большаков О.Г. Средневековый город Средней Азии. Ленинград, 1973
5. Salamzadə Ə.V., Sadıqzadə Ə.Ə., XVIII-XIX əsrlərdə Azərbaycanda yaşayış binalan. Bakı, 1961.
6. Babayev İ.A., Əhmədov Q.M. Qəbəb (tarixi-arxeoloji oçerk). Bakı, Elm, 1981.
7. Əhmodov Q.M. Orta əsr Beybqan şəhəri (tarixi-arxeoloji tədqiqat). Bakı, 1979.
8. İbrahimov F. Bakı orta əsrbrdə. Azərbaycan arxeologiyası, 1999, № 3-4
9. Ибрагимов Б.И. Средневековый город Киран. Баку - Москва, 2000.

10. Кудрявцев А.А. Великий город на Каспии (Дербент в эпоху феодализма). Махачкала, 1982.
11. VahidovR.M. Mingəçevir III-VIII əsrhrdə. Bakı, *1961.*
12. Qazıyev S.M. Qəbələdə aparılmış arxeoloji tədqiqat və qazıntıların ilk yekunlan. AMM, VI cild, Bakı, 1965.
13. Qazıyev S.M. Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqi. AMM, V cild, Bakı, 1964.

14. Исмизаде О.Ш. О раскопках в Кабале на территории южной части городища в 1960 г.// МКА, том V, Баку, 1964.
15. Ахмедов Г.М. Гала-центральная и самая многослойная часть городищИ Кабала// Azərbaycan arxeologiyası və etnoqrafiyası, Bakı, 2003, № 2.
16. Якобсон А.Л. Археологические исследования на городище Орен-КалаЯ 1957 г. // ТАЭ, МИА СССР, № 133. Москва-Ленинград, 1965.
17. Muradov V.N. Orta əsr Azorbaycan şəhərbri. Bakı, Maarif, 1983.
18. Ахмедов Г.М. Средневековый город Байлакан. Баку, Элм, 1986.
19. Əhmodov Q. Qədim Beybqan. Bakı, 1997.
20. Анарбаев А. Благоустройство средневекового города Средней Азии (Ш начало XIII в.) Ташкент, 1981.
21. Якобсон А.Л., Раскопки на городище Орен-Кала в 1953-1955 гг. (раскоп Я ТАЕ, МИА СССР, том I, № 67, Москва-Ленинград, 1959
22. Джафарзаде И.М. Историко-археологический очерк старой Гянджи, (родим Низами). Баку, 1949.
23. Nuriyev A., Babayev Ə. Bərdə şəhərinin tarixi-arxeoloci oçerki (antik və ortfl əsrlər). Bakı, 2001.
24. Мамедзаде К.М. Из истории строительной техники Азербайджана. МКАİİ том VII, Баку, Элм, 1973.
25. Исмизаде О.Ш., Ибрагимов Ф.А., Фоменко В.П. Об археологически раскопках 1972 г. в Баку. Итоги полевых археологических и этнографических исследований за 1972 год в Азербайджанской ССР (тезисы). Баку. Элм, 1979
26. Quliyev E. Abşeronun yaşayış evbri və tikinti mədəniyyəti. Bakı, Elm, 1984.1
27. Ибрагимов Ф.А., Исмизаде О.111, Минкевич-Мустафаева Н.В., Фоменко! И.П., Ахмедов Р.Д. Археологические раскопки 1976 г. в Баку. АЭИА (19761 г.), Баку, Элм, 1979.
28. Ибрагимов Ф.А., Гусейнова СБ. Археологические исследования восточной части «Ичери шехер» города Баку в 1982 г. // АЭИА (1982 г.), Баку, Элм,| 1987.
29. İbrahimov K.F. Bakı IX-XV əsrlərdə (tarixi-arxeoloji tədqiqat)// Tarixj elmbri namizədi alimlik dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2004.
30. Джидди Г.А. О результатах археологического исследования 1976 г. в средневековой Шемахе и ее окрестностях. АЭИА (1976), Баку, Элм, 1979.
31. Джидди Г.А. Средневековый город Шемаха IX-XVII в.в. (историко-археологическое исследование). Баку, Элм, 1981.
32. Джидди Г.А. Историко-археологический очерк крепости Полистан// Автореферат диссерт. канд. ист. наук, Баку, 1962.
33. Ciddi H.Э. Şamaxı-Yəzidiyyə və Gülüstan qalası. // AMM, VII cild. Bakı, 1973.
34. Кудрявцев А.А. Дербенту - 5000 лет. Москва, 1989.
35. Хан-Магомедов С. Дербент (Горная стена, Аулы Табасарана). Москва, 1958.

36. Dostiyev T. Şimal-şərqi Azərbaycan IX-XV əsrlərdə (Quba -Xaçmaz materiallan əsasmda tarixi-arxeoloji tədqiqat). Bakı, 2001.
37. Ибрагимов Б. Керимов В. Исследования городища Хараба-Гилан. АЭИА (1976г.) Баку, Элм, 1980.
38. Аббасов А.А. и др. Азербайджанцы (Историко-этнографический очерк). Баку, 1988.

**Samir Karimov The houses of the medieval Azerbaijan Summary**

This article is dedicated to houses of the medieval Azerbaijan. The author on the basis of found remains of constructions revealed the main features of houses dated back to the 9$^{th}$ -13$^{th}$ centuries.